# ZƏMANƏTİN ŞƏRTLƏRİ VƏ QAYDALARI

Bu sənəd "PROMISE GROUP" MMC tərəfindən təqdim olunan PROTECT və PROLONG zəmanət planlarının əsas şərtlərini, təminat dairəsini, istisnaları, eləcə də tərəflərin hüquq və öhdəliklərini müəyyən edir.

## 1. ÜMUMİ ŞƏRTLƏR

1.1. Məhsul istehsalçının istifadə, texniki xidmət və təhlükəsizlik qaydalarına uyğun istifadə edilməlidir. Bu qaydalara əməl edilməməsi zəmanət təminatının rədd edilməsinə səbəb ola bilər.

1.2. Təmir və ya əvəzləmə prosesindən əvvəl məhsulda saxlanılan məlumatların ehtiyat nüsxəsinin çıxarılması müştərinin məsuliyyətidir. Təmir və ya əvəzləmə zamanı məlumatların və proqram təminatının silinməsinə görə PROMISE məsuliyyət daşımır.

1.3. Zəmanət hadisəsi baş verdikdə PROMISE-in seçiminə əsasən:
• məhsul təmir edilə bilər;
• məhsul əvəz edilə bilər;
• hədiyyə kartı formasında kompensasiya ödənilə bilər.

1.4. Təmir zamanı qeyri-orijinal ehtiyat hissələrindən istifadə oluna bilər. İstehsalçı zəmanəti qüvvədə olduğu hallarda bu Plan üzrə həyata keçirilən təmir istehsalçı zəmanətinə təsir göstərə bilər.

1.5. Məhsula PROMISE tərəfindən təsdiqlənməmiş hər hansı müdaxilə, təmir və ya dəyişiklik aşkar edilərsə zəmanət qüvvədən düşür. Bu halda zəmanət üzrə ödənilmiş məbləğ geri qaytarılmır.

1.6. Təminat məbləği (TM) sertifikatda göstərilən maksimum məbləğdir və PROMISE-in ümumi məsuliyyəti həmin məbləğlə məhdudlaşır.

1.7. Məhsul kredit, nisyə və ya taksitlə əldə edilmişdirsə, kompensasiya ilk növbədə mövcud borcun bağlanılmasına yönəldilir.

1.8. Nisyə satış yolu ilə əldə edilmiş məhsul üzrə zəmanət hadisəsi baş verdikdə təmir xərci müştərinin hadisə baş verən tarixədək ödədiyi məbləği aşarsa, müştəri fərq məbləğini kredit müqaviləsi üzrə qalıq borca ödəməyi qəbul edir. Fərq məbləği qalıq borcdan çox

olduqda müqavilə üzrə borcun tam bağlanması tələb olunur.

1.9. Cari gecikməsi olan müştərilərə xidmət göstərilməyə bilər. Orta gecikmə müddəti 3–10 gün arasında olduqda xidmət göstərilməsi üçün qalıq borcun tam bağlanması tələb olunur.

1.10. PROMISE bu plan üzrə hüquq və öhdəliklərini üçüncü şəxslərə ötürə bilər.

1.11. Məhsul başqa şəxsə verildikdə yeni sahib plan üzrə hüquq və öhdəlikləri qəbul etmiş hesab olunur.

## 2. PROTECT ZƏMANƏT PLANI

Əhatə dairəsi:
• Təsadüfi zədələnmə və sınma
• Məhsula maye keçməsi
• Açıq alovla təmas
• Elektrik cərəyanı nəticəsində yaranan zədələnmələr
• Virus nəticəsində yaranan mexaniki qüsurlar

Kompensasiya cədvəli:
14 gün – 100%
15-90 gün – 80%
91-180 gün – 65%
181-365 gün – 50%
366-730 gün – 40%
731 gün və daha çox – 30%

### PROTECT üzrə İstisnalar

a) Bu Plana qoşulma zamanı mövcud olmuş qüsurlar;

b) Kosmetik qüsurlar, həmçinin cihazın düzgün işləməsinə və fəaliyyətinə mane olmayan qeyri-funksional hissələrin zədələnməsi və ya nasazlığı, o cümlədən xarici görünüş elementləri, dekorativ örtüklər, örtükdəki qüsurlar, funksional olmayan plastik hissələr, bəzək elementləri, əlavələr və aksesuarlar;

c) İstehsalçının texniki tələblərinə uyğun olmayan quraşdırma və ya sazlama, icazəsiz dəyişikliklər və modifikasiyalar;

d) Hər hansı dizayn qüsuru və ya sistem xarakterli istehsal qüsuru nəticəsində yaranan nasazlıqlar, habelə nasazlığın baş verdiyi vaxt qüvvədə olan istehsalçı zəmanəti və ya recall proqramı ilə əhatə olunan nasazlıqlar;

e) Təbiət hadisələri və ya digər təbii fəlakətlər nəticəsində yaranan nasazlıqlar;

f) Zəmanət predmetinin quraşdırılması və ya sökülməsi, daşınması ilə bağlı xərclər;

g) Seriya nömrəsi dəyişdirilmiş və ya silinmiş, oxunaq vəziyyətdə olmayan cihazlar;

h) Cihazın oğurlanması və itirilməsi halları;

i) Müntəzəm olaraq dəyişdirilməsi nəzərdə tutulan hissələr, o cümlədən lampalar, xarici enerji adapterləri, stilus qələmlər, antenalar, kartriclər və batareyalar;

j) Ölkə ərazisindən xaricdə yerləşən cihazlar;

k) Təmir və ya əvəzləmə zamanı silinmiş və ya zədələnmiş məlumatlar və proqram təminatı;

l) Proqram təminatı problemləri, viruslar, Trojan proqramları, reklam və izləmə proqramları nəticəsində yaranan itkilər;

m) Məhsulun funksionallığına əhəmiyyətli təsir göstərməyən piksel qüsurları;

n) Üçüncü şəxslərin əmlakına dəymiş zərər, xəsarət və ya ölüm halları.

## 3. PROLONG ZƏMANƏT PLANI

Əhatə dairəsi:
• İstehsal qüsurları
• Funksional nasazlıqlar
• Texniki defektlər

### PROLONG üzrə İstisnalar

a) İstehsal qüsuru ilə əlaqədar olmayan, cihazın istifadəsi zamanı yaranmış sınma, yanma, maye keçməsi və digər mexaniki zədələr;

b) Bu Plana qoşulma zamanı mövcud olmuş qüsurlar;

c) Kosmetik qüsurlar, həmçinin cihazın düzgün işləməsinə və fəaliyyətinə mane olmayan qeyri-funksional hissələrin zədələnməsi və ya nasazlığı;

d) İstehsalçının texniki tələblərinə uyğun olmayan quraşdırma və ya sazlama, icazəsiz dəyişikliklər və modifikasiyalar;

e) İstehsalçı zəmanəti və ya recall proqramı ilə əhatə olunan hallar;

f) Təbiət hadisələri və ya digər təbii fəlakətlər;

g) Quraşdırma, sökülmə və daşınma xərcləri;

h) Seriya nömrəsi dəyişdirilmiş və ya silinmiş cihazlar;

i) Oğurluq və itki halları;

j) Lampalar, adapterlər, stilus qələmlər, antenalar, kartriclər və batareyalar;

k) Ölkə ərazisindən xaricdə yerləşən cihazlar;

l) Təmir və ya əvəzləmə zamanı silinmiş məlumatlar və proqram təminatı;

m) Proqram təminatı problemləri, viruslar, Trojan proqramları, reklam və izləmə proqramları nəticəsində yaranan itkilər;

n) Məhsulun funksionallığına əhəmiyyətli təsir göstərməyən piksel qüsurları;

o) Üçüncü şəxslərin əmlakına dəymiş zərər, xəsarət və ya ölüm halları.

## 4. ELEKTRON TƏSDİQ

Təsdiq edirəm ki, bu sənəddə göstərilən şərtlərlə, təminat dairəsi, istisnalar, hüquq və öhdəliklərlə tanış olmuşam, onları başa düşmüşəm və qəbul edirəm.